**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN UNİVERSİTETİ**

# “FOLKLORŞÜNASLIQ (5719.01)”

*ixtisası üzrə doktorantura pilləsində*
*İxtisas imtahanı proqramı*

**PROQRAM**

**Bakı – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN UNİVERSİTETİ**

# "FOLKLORŞÜNASLIQ (5719.01)"

*ixtisası üzrə doktorantura pilləsində*
*İxtisas imtahanı proqramı*

**PROQRAM**

*Azərbaycan Respublikası Təhsil Nazirliyi*
*Azərbaycan Universitetinin*
*Humanitar fənlər fakültəsinin Elmi Şurasının*
*31.03.2021-ci il tarixli (protokol №29 )*
*iclasında təsdiq edilmişdir.*

**Bakı – 2021**

**Tərtib edən:** **prof. Asif Hacıyev**
*filologiya elmləri doktoru, professor*

**Redaktoru:** **Ülviyyə Rəhimova**
*filologiya üzrə fəlsəfə doktoru,dosent*

**Rəyçilər:** **Tariyel Qəni**
*filologiya üzrə fəlsəfə doktoru,dosent*

**Məhərrəm Qasımlı**
*filologiya elmləri doktoru, professor*

**Proqramın aktuallığı:** Proqram folklorşünaslıq üzrə yüksək ixtisaslı mütəxəssis hazırlığının nəzəri məzmununu və gələcək elmi-tədqiqat və pedaqoji fəaliyyətdə tətbiqi üçün zəruri olacaq bilik, bacarıq və vərdişlərin sistemli məcmusunu ehtiva edir.

**Proqramın konsepsiyası** elmi tədqiqatların və ali təhsilli kadr hazırlığının dinamik dəyişkənliyi şəraitində elmi-tədqiqat, təhsil və mədəniyyət sahələrində innovativ fəaliyyətə qabil olan mütəxəssis hazırlığı tələbinə əsaslanıb və folklorşünaslıq üzrə peşəkar elmi və pedaqoji fəaliyyət üçün zəruri olan aşağıdakı **kompetensiyaların** formalaşmasına, bilik və bacarıqların aşılanmasına yönəlib:

- folklorşünaslıq elminin nəzəri və metodoloji əsaslarının dərindən və sistemli öyrənilməsi;
- folklor yaradıcılığının tipoloji özünəməxsusluğunun və inkişaf qanunauyğunluqlarının mənimsənilməsi;
- folklorun nəzəriyyəsi, janr sistemi, poetikası, folklorşünaslığın tarixi və ən yeni elmi metod və məktəblər barədə sistemli biliklərin qazanılması;
- türk xalqları folklorunun tarixi-tipoloji özünəməxsusluğu, genetik və tarixi ortaqlığı haqqında biliklərin mənimsənilməsi;
- Azərbaycan folklorunun təkamül mərhələləri, yaradıcılıq tipologiyası, məzmun və forma xüsusiyyətləri haqqında sistemli biliyin mənimsənilməsi;
- qazanılmış nəzəri biliklərin elmi-tədqiqat və pedaqoji fəaliyyətdə müstəqil tətbiqi bacarığı və vərdişləri;
- folklorşünaslıq sahəsində müasir elmi nəticələrin tənqidi təhlili və qiymətləndirilməsi qabiliyyəti;

- elmi-nəzəri tədqiqat və təcrübi məsələlərin həllinə müstəqil yanaşma, yeni ideyaların generasiyası qabiliyyəti;
- folklorşünaslıq tədqiqatında sistemlilik və kompleks yanaşma qabiliyyəti, fənlərarası əlaqələr kontekstində filoloji və kulturoloji aspektli tədqiqat bacarığı;
- özünütəhlil, elmi-nəzəri və pedaqoji fəaliyyətin planlaşdırılması və peşəkar inkişafın təşkili qabiliyyəti;
- araşdırılan materialın və elmi məqsədin səciyyəsinə uyğun tədqiqat metodunun seçilməsi və ya işlənməsi bacarığı;
- folklorşünaslıq sahəsində elmi informasiyanın və çöl materialının toplanması, pasportlaşdırılması, mətnləşdirilməsi, sistemləşdirilməsi və arxivləşdirilməsi vərdişləri;
- folklor mətnlərinin qarşıya qoyulmuş məqsəd və vəzifələr baxımından müasir elmi nailiyyətlər kontekstində identifikasiyası və müstəqil təhlili səriştəsi;
- folklor mətninin yaranma dövrü və tarixi özünəməxsusluğunun, poetik xüsusiyyətlərinin və funksional aspektlərinin təhlili bacarığı;
- ali təhsil müəssisələrində müvafiq sahə üzrə pedaqoji fəaliyyət, tələbələrin elmi yaradıcılığının təşkili səriştəsi;
- folklorşünaslıq və digər humanitar elm sahələri (etnologiya, mifologiya, etnoqrafiya, etnolinqvistika, sosiologiya, ədəbiyyatşünaslıq, tarix, etnomusiqişünaslıq və sairə) arasında fənlərarası əlaqələrin dərki və diskursiv tədqiq qabiliyyəti;
- folklorşünaslıq və ənənəvi xalq mədəniyyəti üzrə elmi anlayışların və terminologiyanın mənimsənilməsi;

- elmi-tədqiqat layihələrinin, kollektiv araşdırmaların planlaşdırılması və icrası vərdişləri, müasir elmi paradiqmada fəaliyyət, inteqrasiya və tədqiqatın aktuallaşdırılması qabiliyyəti.

**Folklorşünaslıq və onun filoloji elmlər sistemində mövqeyi.** Dünya ədəbi-nəzəri fikrinin görkəmli nümayəndələri, folklorşünaslar, etnoqraflar, musiqişünaslar, dilçilər sənətin mənşəyi ilə bağlı müxtəlif səpkili mülahizələr yürütmüşlər. Yunan filosoflarının, Roma ədəbiyyatının görkəmli nümayəndələrinin, eləcə də Avropa elmi-nəzəri fikrinin bu sahədə ciddi mülahizələri bir tərəf kimi sənətin mənşəyinin müəyyənləşməsinə yönəlmişdir. Fales, Platon, Demokrit, Sokrat, Aristotel. Aristotelin "Poetika", "Etika", "Ritorika" əsərləri. Horatsinin "Pizonlara məktub", "Poeziya sənəti" əsəri. Azərbaycan ədəbi-nəzəri fikrinin mülahizələri və s. Klassik və müasir elmi-nəzəri fikirdə sənətin mənşəyi ilə bağlı fikir və mülahizələr. Sənətin mənşəyində əməyin rolu. İncəsənətin ilk rüşeymlərinin mövcudluğu. Dərk və idrak, görmə və eşitmə, təqlid. Qayaüstü təsvirlər. İncəsənətin çıxış nöqtəsi – mifologiya.

Folklorşünaslığın bir elm kimi formalaşması. Başqa elmlərlə əlaqəsi. Avropada meydana gələn nəzəriyyələr. Beynəlxalq folklorşünaslıq məktəbləri: mifoloji məktəb. Antropoloji-etnoqrafik məktəb. Tarixi poetika: formalizm və strukturalizm məktəbləri. Folklorşünaslıqda miqrasiya nəzəriyyəsi. Semiotik araşdırmaların folklorşünaslıqda rolu.

Nəzəriyyələrin meydana gəlməsini şərtləndirən amillər. Yakov və Vilhelm Qrim qardaşlarının folkolşünaslıqda yeri. V.Proppun funksiyalar nəzəriyyəsi.

Fransız etioloq alimi Klod Levi Stros (1908-2009) və onun Şimali və Cənubi Amerika hindularının təsəvvürləri ilə bağlı apardığı dörd cildlik "Mythologiques" adlı tədqiqatı.

Folklor yaradıcılığının tipologiyası: ənənəvilik, şifahilik, xəlqilik, anonimlik, kollektivlik, polivalentlik.

**Azərbaycan folklorşünaslığının inkişaf mərhələləri.** XIX əsr Azərbaycan folklorşünaslığı. M. Kazımbəy, M. Mahmudbəyov, M. F. Axundov, E. Sultanov, T. Bayraməlibəyovun folklorşünaslıq fəaliyyəti. XIX əsr rus mətbuatında çap olunan Azərbaycan folklor nümunələri. "Тифлисские ведемости», «Кавказ», «Кавказский вестник», «Новое обозрение», СМОМNК və s. qəzet və jurnalların xalq ədəbiyyatının nəşri və öyrənilməsində rolu. "Əkinçi" qəzeti və Azərbaycan folkloru. 1891-ci il 5-12 sentyabr tarixində Londonda keçirilən Şərqşünasların IX konqresi ilə bağlı Əhməd bəy Ağaoğlunun "Şərqşünasların konqresində" məqaləsi. Əhməd Cəfəroğlu və məşhur rus alimi Q.N.Potaninin (1835-1920 "Orta əsrlər Avropa eposunda Şərq motivləri" ("Восточные мотивы в средневековом Европейсом эпосы") əsəri.

XX əsr Azərbaycan folklorşünaslığının tarixində yeni mərhələ kimi. S.Mümtaz, V.Xuluflu, H.Zeynallı, Y.V.Çəmənzəminli, Ə.Abidin, H.Əlizadə, F.Köçərli, Ü.Hacıbəyov, N.Nərimanov, R.Əfəndiyev, A.Şaiq və başqalarının folklorşünaslıq fəaliyyəti. Azərbaycanı tədqiq və tətəbbö cəmiyyətinin yaranması. XX əsr Azərbaycan mətbuatının folklorşünaslığın formalaşmasında rolu. İlkin nəşrlər. Dastanların, nağılların ayrı-yarı cildlərinin nəşri. Akademik nəşrlərin yaranması. M.H.Təhmasibin, H.Araslının, Ə.Axundovun, P.Əfəndiyevin, V.Vəliyevin,

İ.Abbasovun, M.Həkimovun, R.Rüstəmzadənin, S.Paşayevin və s. folklorşünaslıq fəaliyyəti.Yazıçı və folklor. Nizami və xalq ədəbiyyatı.

**Klassik dövrdə türk folklor araşdırmaları.** Mahmud Kaşğarlının "Divanü-lüğət-it türk" (XI əsr) əsərində folklor motivləri. Cəmaləddin İbn Mühənnanın "Hilyətül lisan həlbətül insan" adlı lüğətində folklor. Alman əsilli Adam Oleari, türk Övliya Çələbi və başqalarının səyahətnamələrində folklorşünaslıq üçün mənbələr. Əbilqasım Firdovsinin "Şahnamə"sində türk folklorunun təsiri. "Orxon-Yenisey" abidələrində türk folkloru.

**Azərbaycan maarifçiliyində folklor araşdırmaları.** XIX əsr Azərbaycanda maarifçilik dövründə ictimai-siyasi həyatla bağlı olan hadisələrlə əlaqədar şifahi xalq ədəbiyyatına maraq. XIX əsrdə "Сборник материалов для описания местностей и племен Кавказа" - SMOMPK ("Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu" – QƏXTMT) adlı Tiflisdə davamlı çap olunan məcmuədə Azərbaycan folkloru haqqında. XIX əsrin 80-ci illərindən başlayaraq Azərbaycan folkorunun toplanması, tərcüməsi va nəşri.

"Кавказ" qəzetinin redaktoru, Azərbaycan folklor nümunələrini və "Koroğlu" dastanını çap etdirən D. Silivitskinin fəaliyyəti. M. F. Axundovun folklorşünaslıq fəaliyyəti. M. Mahmudbəyovun toplamasında "Aşıq Qərib" dastanının nəğmələri. Maarifçilik dövründə ilk çap olunan Azarbaycan nağılı (1825- ci ildə «Деревянная красавица»). Azərbaycan aşıq məktəbləri. Aşıq şerinin poetikası

**XX əsrin əvvəllərində Azərbaycan folklorşünaslığı.** C.Hacıbəylinin Parisdə 1933-cü ildə nəşr etdirdiyi "Qarabağın

dialekt və folkloru (Qafqaz Azərbaycanı)" əsəri. Salman Mümtazın folklorşünaslıq fəaliyyəti; folklor nümunələrinin toplanması və nəşr olunmasında rolu. «Molla Nəsrəddin»in xalq ədəbiyyatına demək olar ki, hər nömrəsində müraciəti. C. Məmmədquluzadənin «Anamın kitabı», «Kamança» pyeslərində folklor, xalqın dünyagörüşü, Ü. Hacıbəyovun xalq ədəbiyyatı, xalq musiqisi əsasında yazdığı əsərlər, uşaq yazıçılarımızın folklordan istifadə ilə yazılmış əsərləri, F. Köçərli, A. Şaiq, R. Əfəndiyev, Y. V. Çəmənzəminli və başqalarının folklorşünaslıq sahəsindəki xidmətləri. XX əsrin 20-30-cu illərində Azərbaycan folklorşünaslığının təməl prinsiplər əsasında xüsusi formalaşma mərhələsi.

**Sovet dövrü Azərbaycan folklorşünaslığı (1930-1950-ci illər).** Azərbaycan folklorunun sistemli şəkildə dünya folklorşünaslığı kontekstində tədqiqinin əsasının qoyulması. Azərbaycan folklorşünaslıq nəzsəriyyəsinin formalaşması və inkişafı. Folklor və mifologiya. Azərbaycan mifologiyasının, folklorunun, qədim adət-ənənələrinin mahir bilicisi Y.V.Çəmənzəminlinin yaradıcılığında Azərbaycan folklorşünaslığında mərasim folklorunun hərtərəfli öyrənilməsi.

**XX əsrin ikinci yarısında Azərbaycan folklorşünaslığı.** Azərbaycan qorqudşünaslığının inkişafına diqqət. "Kitabi Dədə Qorqud"un realibitasiyası. Bu dövrdə folklor nümunələrinin janr modelləri, vəzn, qafiyə, dil-üslub xüsusiyyətləri.

**Müstəqillik dövrü Azərbaycan folklorşünaslığı.** Müasir folklorşünaslığın inkişaf meylləri. Folklorşünaslıq araşdırmalarının kompleks səciyyəsi və elmlərarası əlaqə. Müasir Azərbaycanda əsas folklorşünaslıq mərkəzləri və

onların tədqiqat istiqamətləri. Folklor yaradıcılığında müasir proseslər: şəhər folkloru və şəhər mifologiyası anlayışları. Folklor yaradıcılığında müasir proseslər: “şəbəkə folkloru” anlayışı, müasir folklor və kütləvi mədəniyyət. Azərbaycan folklorunun ümumtürk, ümumşərq və ümumdünya kontekstində öyrənilməsi.

**Foklor nəzəriyyəsinin özünəməxsus xüsusiyyətləri.** Folklor yaradıcılığının kommunikativ aspektləri və ifaçılıq məsələsi. Folklorda polifunksionallıq, çoxkomponentlik və sinkretiklik. Folklor və etnos: etnik tarix və şüurun folklor mətnlərində ifadəsi. Xalq yaradıcılığında lokallıq, regionallıq və mədəniyyətlərarası əlaqələr. Ənənəvi və müasir folklor mətnlərinin ortaq və fərqli səciyyəsi. Klassik türk mifoloji mətnləri və dastançılığı. Folklor və etnoqrafiya. Folklor və mərasim. Folklor və ədəbiyyat: əlaqələrin dialoji səciyyəsi. Ənənəvi folklorun inkişaf mərhələləri.

**Folklor mətnlərinin janr təsnifi və poetik təsnifi.** Şifahi nəsrin janr təsnifi: əfsanə, rəvayət, hekayət, lətifə və sairə. Ozan və aşıq anlayışları. Aşıq yaradıcılığının tipologiyası və janr təsnifi. Dastan yaradıcılığı və janr tipləri. Klassik türk eposu və dastan yaradıcılığı. Qəhrəmanlıq dastanlarının janr xüsusiyyətləri. “Koroğlu” dastanının janr xüsusiyyətləri, məzmun və poetikası.

Məhəbbət dastanlarının janr xüsusiyyətləri və poetikası. Məhəbbət dastanlarında dini-fəlsəfi motivlər. Xalq nəğmələrinin janr təsnifi. Lirik folklor mətnlərinin janr təsnifi və poetik səciyyəsi. Ənənəvi folklor yaradıcılığının janr tipologiyası.

Mərasim folklorunun təsnifi və janr səciyyəsi. Şifahi nəsrin janr təsnifi: nağıllar.

Bayatıların janr tipləri və poetikası. Paremifoloji janrların təsnifi və bədii xüsusiyyətləri. Uşaq folklorunun janr təsnifi və funksional səciyyəsi.

**Folklor mətnlərinin poetik sistemi:** Folklor mətnlərinin poetik sisteminin təhlili meyarları. personajların təsnifi, səciyyəsi və funksiyaları. Folklor mətnlərinin poetik sistemi: bədii zaman və məkan. Folklor mətnlərinin poetik sistemi: peyzaj və interyer. Folklor mətnlərinin poetik sistemi: dil və üslub. Folklor mətnlərinin süjet və kompozisiya quruluşu: dinamika və statikanın, ifadə və təhkiyənin, hadisə və mənzərənin tənasübü. Folklorda kanon və fərdilik, ənənə və novatorluğun tənasübü. Folklor yaradıcılığında variativlik: mətn variantları və versiyaları, mətnlərarası əlaqələr. Folklor toplayıcılığının elmi əsasları və metodik prinsipləri. Xalq şerinin ritmik əsasları və vəzn xüsusiyyətləri.

**ƏDƏBİYYAT**

1. Azərbaycan türkcəsində

2. Abbaslı İsrafil. Folklorşünaslıq axtarışları, 2 cilddə, I cild, Bakı: Nurlan, 2009, 512 s.

3. Abbaslı İsrafil. “Koroğlu”: nə var, nə yox?Bakı: Elm və təhsil, 2013, 282 s.

4. Abdulla Bəhlul. “Kitabi-Dədə Qorqud”un poetikası, Bakı: Elm, 1999, 224 s.

5. Ağaoğlu Əhməd. Seçilmiş əsərləri, Bakı: Şərq-Qərb, 2007. 392 s.

6. Araslı Həmid, Aşıq yaradıcılığı, Bakı: Birləşmiş nəşriyyat, 1960, 136 s.

7. Arvad ağısı, Bakı: Səda, 2005, 58s.

8. Aşıq Alı. Əsərləri. Tərtib edən: H.İsmayılov, Bakı: Avrasiya Press, 2006, 192 s.

9. Aşıqlar. Tərtib edən: H.Əlizadə, Bakı: Azərnəşr, 1937, 523 s.

10. Aşıqlar. Tərtib edən: S.Axundov, Bakı: Respublika Xalq Yaradıcılığı evi, 1957, 302 s.

11. Aşıqlar. Tərtib edən: Səttar Axundov, Bakı: 1960, 184 s.

12. Aşıq Ələsgər. Əsərləri Tərtib edən: Islam Ələsgər, Bakı: “Şərq-Qərb”, 2004, 400 s.

13. Azərbacan aşıqları və el şairləri Toplayan: Əhliman Axundov, Bakı: Elm, 1984, 544 s.

14. Azərbaycan dastanları. 5 cilddə, I c., Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1965, 380 s.; II c., Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1966, 475 s.; IV c., Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1969, 508 s.

15. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I c., Bakı: Folklorşünaslığa giriş, 237 Azərbaycan SSR EA nəşriyyatı, 1960, 590 s.

16. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, I c., Bakı: Elm, 2004, 760 s.

17. Azərbaycan folkloru, Bakı: Şərq-Qərb, 2005, 360 s.

18. Azərbaycan folkloru antologiyası. Toplayan: Əhliman Axundov, I kitab, Bakı: Azərbacan SSR EA nəşr, 1968, 290 s.; II kitab, Bakı: Azərbacan SSR EA nəşr, 1968, 260 s.

19. Azərbaycan klassik ədəbiyyatı kitabxanası, 20 cilddə, I cild (Xalq ədəbiyyatı, tərtib edənlər: Təhmasib Fərzəliyev, İsrafil Abbasov), Bakı: Elm, 1982, 510 s.

20. Bayat Füzuli. Oğuz epik ənənəsi və "Oğuz Kağan" dastanı, Bakı: "Sabah", 1993, 194 s.

21. Bayat Füzuli. Folklor haqqında yazılar, Bakı: Elm və təhsil, 2010, 224 s.

22. Bayat Füzuli. Folklor dərsləri, Bakı: Elm və təhsil, 2012, 424 s.

23. Bayat Füzuli. Övliya mankabələri. Türk dərvişlərinin kəramətləri. Bakı: Elm və təhsil, 2013, 212 s.

24. Bəydili Cəlal (Məmmədov). Türk mifoloji obrazlar sistemi (struktur və funksiya), Bakı: Mütərcim, 2007, 272 s.

25. Cəfəroğlu Əhməd. Seçilmiş əsərləri, Bakı: Mütərcim, 2008, 408 s.

26. Cəfərov Nizami. Qədim türk ədəbiyyatı, Bakı, AzAtaM, 2004, 322 s.

27. Cəmşidov Şamil. Kitabi-Dədəm Qorqud, Bakı: Elm, 1999, 680 s.

28. Əfəndiyev Paşa. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı: Elm və təhsil, 2013, 600 s.

29. Əsgər Əfzələddin. Oğuznamə yaradıcılığı, Bakı: Elm və təhsil, 2013, 340 s.

30. Güney Azərbaycan folkloru, I kitab, Bakı: Elm və təhsil, 2013, 456 s.; II kitab, Bakı: Elm və təhsil, 2014, 340 s.; III kitab, Bakı: Elm və təhsil, 2014, 230 s.; IV kitab, Bakı: Elm və təhsil, 2014, 388 s.; Bakı: Elm və təhsil, 2014, 388 s.

31. Hacıbəyli Ceyhun bəy. Qarabağın dialekt və folkloru (Qafqaz Azərbaycanı), Bakı: Ozan, 1999, 48 s.

32. Hacıyev Tofiq. Dədə Qorqud: dilimiz, düşüncəmiz, Bakı: Elm, 1999, 216 s.

33. Heyət Cavad. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı: Azərnəşr, 1990, 164 s. 41. Həkimov Mürsəl, Azərbaycan aşıq ədəbiyyatı, Bakı: Yazıçı, 1983, 240 s.

34. Həkimov Mürsəl, Azərbaycan aşıq şer şəkilləri və qaynaqları, Bakı: Maarif, 1999, 376 s.

35. Həqqi Behruz. Azərbaycan şifahi xalq ədəbiyyatı (əski əlifba ilə), Köln: Azərbaycan yayın evi, 1990, 116 s.

36. Həqqi Behruz (Çöl gülü). Tapmacalar, bilməcələr, Köln: Azərbaycan yayın evi, 2000, 194 s. Folklorşünaslığa giriş 239

37. Həqqi Behruz. "Koroğlu" - tarixi-mifoloji gerçəklik, Bakı: Nurlan, 2003, 316 s.

38. Həqqi Behruz. Azərbaycanın Qurvə və Gərus-Bicar türklərinin ağız ədəbiyyatından örnəklər, Bakı: Adiloğlu, 2008, 80 s.

39. Həsənqızı Almaz. Mühacirətdə folklor janrlarının tədqiqi, Bakı: Elm və təhsil, 2012, 212 s. 48. Kazımoğlu Muxtar (İmanov). Gülüşün arxaik kökləri, Bakı: “Elm”, 2005, 186 s.

40. Kitabi-Dədə Qorqud. Nəşrə hazırlayanı Həmid Araslı, Bakı: 1939, 180 s.

41. Kitabi-Dədə Qorqud. Nəşrə hazırlayanı Həmid Araslı, Bakı: 1962, 174 s.

42. Kitabi-Dədə Qorqud. Nəşrə hazırlayanı Həmid Araslı, Bakı: 1978, 184 s.

43. Qasımlı Məhərrəm. Ozan-aşıq sənəti, Bakı: Uğur, 2007, 304 s.

44. Qasımov Cəlal. Azərbaycan folklorşünaslığı və sovet totalitarizmi, Bakı: 2011, 600 s.

45. Şükürov Ağayar. Mifologiya, 6-cı kitab, Qədim türk mifologiyası, Bakı: Elm, 1997, 232 s. 55. Təhmasib Məmmədhüseyn. Seçilmiş əsərləri, 2 cilddə, I cild, Bakı: Mütərcim, 2010, 488 s. 56. Vəliyev Vaqif. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: ADU-nun nəşriyyatı, 1970, 439 s. 57. Vəliyev Vaqif. Azərbaycan folkloru, Bakı:Maarif, 1985, 416 s.

Yığıma verilmişdir: 09.01.2021
Çapa hazırlanmışdır: 04.02.2021
Kağız formatı 60x84  1/16
Ofset üsulu ilə çap edilmişdir.
Şərti ç.v. 1.5